# AZƏRBAYCAN RESPUBLİKASıNIN

# SƏHİYYƏ NAZİRİ

# ƏMR

**№ 142** **25.12.2014-cü il**

**Bakı şəhəri**

**“Diridoğulmanın beynəlxalq meyarlarına keçid barədə”**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli 550 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramının” 4.5.1-ci yarımbəndini və “Diridoğulmanın beynəlxalq meyarlarının tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli qərarının 2-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasında diridoğulmanın beynəlxalq meyarlarına keçid məqsədi ilə

## ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikasında 01 yanvar 2015-ci il tarixdən beynəlxalq diridoğulmanın meyarlarına keçidlə əlaqədər doğuşayardım tibb müəssisələri tərəfindən doğuşayardım xidməti, qeydiyyat işi və statistik hesabatların verilməsi qanunvericiliyin və Səhiyyə Nazirliyinin bu sahədə qəbul etdiyi əmr və qərarlarının tələbləri nəzərə alınmaqla həyata keçirilsin.
2. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın ki, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi ilə birgə, diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar ana və uşaqlara xidmət göstərən tibb müəssisələrinə təşkilatı və metodik köməklik göstərilsin.
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinin rəisi M.Əmrahova tapşırılsın:

3.1. diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədar tibb müəssisələri statistik hesabat formaları ilə təmin edilsin;

3.2. statistik hesabatlarla bağlı aidiyyəti tibb işçilərinə metodik köməkliyin göstərilməsi təmin edilsin.

4. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, “Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi”ndə diridoğulmanın beynəlxalq meyarlarına keçidlə bağlı müvafiq dəyişiklərin aparılması təmin edilsin.

5. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun, Azərbaycan Tibb Universitetinin və tibb kolleclərinin tədris proqramlarında diridoğulmanın beynəlxalq meyarlarına keçidlə əlaqədər olaraq müvafiq dəyişikliklərin aparılması təmin edilsin.

6. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru C.Məmmədova tapşırılsın ki, diridoğulmanın beynəlxalq meyarlarına keçidlə bağlı ictimaiyyətin maarifləndirməsi təmin edilsin.

7. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Doğum evlərində (şöbələrində) doğuşayardım işinin təşkilinin təkmilləşdirilməsi barədə” 03 dekabr 2007-ci il tarixli 124 nömrəli və “Qadın məsləhətxanalarında, ambulator-poliklinik tibb müəssisələrində mama-ginekoloji yardımın təşkili barədə” 05 dekabr 2008-ci il tarixli 170 nömrəli əmrləri 01 yanvar 2015-ci il tarixindən qüvvədən düşmüş hesab edilsin.

8. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə olunsun.

**Oqtay Şirəliyev**